*UOT 378: 001.891*

***Xavərxanım Ağamehdi qızı Bakıxanova***
*Bakı Dövlət Universitetinin Gender və tətbiqi psixologiya kafedrasının*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0000-0002-3031-5770*
*E-mail: khaverbakikhanova@bsu.edu.az*
*https://doi.org/10.69682/arti.2026.93(3).175-179*

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN SOSİO-EMOSİONAL KOMPETENSİYALARININ İNKİŞAFI

***Khavarkhanim Agamehdi Bakikhanova***
*doctorial student in the program of doctor of philosophy of the*
*department of Gender and applied psychology of Baku State University*

# DEVELOPMENT OF STUDENTS' SOCIO-EMOTIONAL COMPETENCES IN HIGHER EDUCATIONAL INSTITUTIONS

***Хаварханум Агамехди гызы Бакиханова***
*докторант по программе доктора философии кафедры*
*Гендерной и прикладной психологии Бакинского Государственного Университета*

# РАЗВИТИЕ СОЦИО-ЭМОЦИОНАЛЬНЫХ КОМПЕТЕНЦИЙ СТУДЕНТОВ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

**Xülasə.** Araşdırmalar sübut edir ki, tələbələrin gələcəkdə özlərini təsdiq edə bilməsi və uğurlu peşə fəaliyyəti ilə məşğul olmasına əngəl törədən əsas amillərdən biri sosio-emosional səriştələrin lazımi qədər inkişaf etdirilməməsidir. Təəssüflər olsun ki, sosio-emosional səriştələrin mahiyyətinin olduğundan aşağı qiymətləndirilməsi beynəlxalq problemdir. Son dövrlərdə sosio-emosional səriştələrin təhsilalanlarda inkişaf etdirilməsi təhsil siyasətinin başlıca məqsədlərindən biri hesab olunur.

Məqalədə tələbələrin peşəkar bilikləri ilə paralel olaraq sosio-emosional səriştələrin inkişaf etdirilməsinin vacibliyi mövzusuna toxunacağıq. Tədqiqatlar göstərir ki, sosio-emosional səriştələri tədris proqramlarına inteqrasiya edə bilmək üçün müəyyən vasitələr mövcuddur. Təlim metodları, qrup layihələri, tələbə özünidarəetmə orqanlarının fəaliyyəti və psixoloji dəstək xidmətləri ali təhsil mühitində sosio-emosional səriştələrin formalaşması və inkişafına bilavasitə töhfə verir. Onların təzahürü tələbənin həm təhsil prosesindəki (uğurlu adaptasiya, akademik performans, münaqişələrin konstruktiv həlli), həm də şəxsi həyatındakı (stressə davamlılıq, münasibətlərin qurulması) uğurlarında aşkar şəkildə müşahidə olunur. Ali məktəblərin sosio-emosional öyrənməyə daha çox diqqət yetirməsi və tələbə mərkəzli mühit yaratması ilə gələcək mütəxəssislərin peşəkar və şəxsi uğurlarının artacağı gözlənilәndir.
***Açar sözlər**: tələbə, sosio – emosional kompetensiyalar, mühit, təhsil, peşə, fəaliyyət*

***Abstract.*** Studies prove that one of the main factors that prevents students from asserting themselves in the future and engaging in successful professional activities is the insufficient development of socio-emotional competencies. Unfortunately, the underestimation of the essence of socio-emotional competencies is an international problem. Recently, the development of socio-emotional competencies in students is considered one of the main goals of educational policy.

In the article, we will touch on the importance of developing socio-emotional competencies in parallel with students' professional knowledge. Studies show that there are certain tools to integrate socio-emotional competencies into educational programs. Training methods, group projects, the activities of student self-government bodies and psychological support services directly contribute to the formation and development of socio-emotional competencies in the higher education environment. Their manifestation is clearly observed in the student's successes both in the educational process (successful adaptation, academic performance, constructive resolution of conflicts) and in his personal life (stress resistance, building relationships). It is expected that as higher education institutions pay more attention to socio-emotional learning and create a student-centered environment, the professional and personal success of future professionals will increase.
***Keywords**: student, socio-emotional competencies, environment, education, profession, activity*

**Аннотация.** Исследования доказывают, что одним из главных факторов, препятствующих самореализации студентов в будущем и успешной профессиональной деятельности, является недостаточное развитие социально-эмоциональных компетенций. К сожалению, недооценка сущности социально-эмоциональных компетенций является международной проблемой. В последнее время развитие социально-эмоциональных компетенций у студентов рассматривается как одна из главных целей образовательной политики.

В статье мы затронем важность развития социально-эмоциональных компетенций параллельно с профессиональными знаниями студентов. Исследования показывают, что существуют определенные средства для интеграции социально-эмоциональных компетенций в образовательные программы. Методы обучения, групповые проекты, деятельность органов студенческого самоуправления и службы психологической поддержки напрямую способствуют формированию и развитию социально-эмоциональных компетенций в среде высшего образования. Их проявление отчетливо видно в успехах студента как в учебном процессе (успешная адаптация, академическая успеваемость, конструктивное разрешение конфликтов), так и в личной жизни (стрессоустойчивость, построение отношений). Ожидается, что по мере того, как высшие учебные заведения будут уделять больше внимания социально-эмоциональному обучению и создавать ориентированную на студентов среду, профессиональный и личный успех будущих специалистов будет расти.

***Ключевые слова:*** *студент, социально-эмоциональные компетенции, среда, образование, профессия, деятельность*

**Problemin aktuallığı** Müasir dövrdə təhsil prosesinin məqsəd və vəzifələri dövrün tələblərinə uyğun olaraq kəskin şəkildə genişlənmişdir. Qeyd etsək yanılmarıq ki, texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə peşəkar biliklərə yiyələnmək tələbənin mütəxəssis kimi uğur qazanmasının yeganə yolu deyil. Dünya Təhsil Forumu, UNESCO və nüfuzlu tədqiqat mərkəzlərinin göstəricilərinə görə, işəgötürənlər indi məzunlardan texniki bacarıqlarla yanaşı yüksək inkişaf etmiş "yumşaq bacarıqlar" (soft skills) – məsuliyyət, uyğunlaşma qabiliyyəti, əməkdaşlıq, emosional müdriklik və mürəkkəb kommunikasiya vərdişləri gözləyirlər.

Məlumdur ki, ənənəvi təhsil sistemi əsasən koqnitiv biliklərin çatdırılmasına və qiymətləndirilməsinə yönəlmişdir. Bu da müəyyən ziddiyyətlərə səbəb olur. Buna nümunə olaraq iş bazarının tələbləri ilə təhsil prosesinin real nəticələri arasındakı ziddiyyət və tələbələrin formal bilikləri ilə sosio-emosional hazırlıq səviyyələri arasındakı ziddiyyəti qeyd etsək yanılmarıq.

Bu ziddiyyət özünü konkret problemlərdə göstərir:




***Şəkil 1.1. Ənənəvi və müasir təhsil sistemləri arasındakı ziddiyyətlər nəticəsində yaranan konkret problemlər***

Araşdırmalar sübut edir ki, ali təhsil müəssisələrində tələbələrin sosio-emosional səriştələrin sistemli şəkildə inkişaf etdirilməsinə lazımi diqqətin ayrılmaması son dərəcə aktual problemdir. Qeyd olunan problemlərin həll yolunu tapmaq nəinki tələbələrin şəxsi rifahı və peşəkar uğuru üçün vacibdir, eyni zamanda insan kapitalının keyfiyyətinin artırılması, innovativ iqtisadiyyatın inkişafı və sağlam cəmiyyətin qurulması baxımından strateji əhəmiyyətə malikdir. Problemin aktuallığını və kifayət qədər elmi ədəbiyyatın olmadığını nəzərə alaraq bu istiqamətdə araşdırılmaların aparılması məqsədəuyğun hesab edilmişdir.

**Problemin işlənmə dərəcəsi** Bu mövzunun araşdırılmasına olan tələbatın son 20-25 ildə kəskin şəkildə artdığı müşahidə olunur. Qərb də bu mövzu ilə bağlı əsaslı ədəbiyyatların olduğu müşahidə olunur. Son dövrlərdə isə Organization for Economic Co-operation and Development (OECD) təşkilatının "Future of Education and Skills: Education 2030", "İnnovation and Education 2025" kimi layihələrin həyata keçirilməsi nəticəsində sosio-emosional öyrənmənin ali təhsilin ayrılmaz komponenti olduğunu təsdiq edən konseptual sənədlər hazırlanmışdır. Lakin, problem qlobal səviyyədə yüksək aktuallığa və kifayət qədər işlənmiş nəzəri-empirik bazaya malik olsa da, Azərbaycan təhsil kontekstində onun işlənmə dərəcəsi bir neçə tezis, konfrans materialları, məqalə, dissertasiya ilə məhdudlaşır.

**Məqsəd və vəzifələr**. Bu məqalənin məqsədi ali təhsil mühitində tələbələrin sosio-emosional kompetensiyalarının formalaşma dinamikasını, bu prosesə təsir edən amilləri və bu bacarıqların təhsil-şəxsi həyatda necə özünü göstərdiyini araşdırmaqdır. Tədqiqatın əsasında elmi ədəbiyyatın, müxtəlif tarixi faktların təhlili durur.

**Əldə edilən nəticələr**. Məlumdur ki, sosio-emosional səriştələrinin təhsilalanlar arasında inkişaf etdirilməsi məsələsi bir çox ölkələrin, həmçinin Azərbaycan təhsil sistemində əsrlər boyu ikinci planda olmuşdur. Yaranan ciddi problemlər bu sahənin araşdırılmasına şərait yaratmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, ali təhsil müəssisələrində sosio-emosional səriştələrinin nkişafı formal, qeyri-formal və informal kontekstdə baş verir.

Formal təhsil kontekstində sosio-emosional səriştələrin inkişafını nəzərdən keçirsək şahidi olarıq ki, sosio-emosional səriştələrin humanitar və sosial-elmi fənlərin tədrisi prosesində tələbələrə mənimsədilir. Bu zaman nəzəri istiqamət əsas hesab olunur. Lakin araşdırmalar sübut edir ki, tələbələr debatlar, qrup layihələri, müzakirələr, problem həlledici simulyasiyalar zamanı sosio-emosional səriştələrin əsas səriştələrindən olan əməkdaşlıq, təzyiq altında işləmə və öz fikrini ifadə etmə bacarıqlarını daha sürətli mənimsəyirlər. Nəinki informasiyaları nəzəri qəbul edib, ona uyğun müvafiq imtahanlardan keçərək.

Qeyri-formal kontekst sosio-emosional inkişafın ən səmərəli platforması hesab olunur. Qeyri-formal mühitə tələbə klub və assosiasiyaları, könüllü təşəbbüslər, idman yarışları, tələbə özünüidarəetmə orqanları və s. aid edilir. Burada tələbələr real sosial vəzifələr daşıyır, müxtəlif insanlarla qarşılıqlı əlaqədə olur, məsuliyyət alır və münaqişələrdən çıxış yolları axtarır. Anket sorğuları göstərdi ki, bu cür fəaliyyətlərdə aktiv iştirak edən tələbələr, passiv tələbələrlə müqayisədə, özünüidarəetmə və sosial məsuliyyət göstəricilərində 30-40% daha yüksək nəticələr əldə etmişlər.

İnformal qarşılıqlı əlaqə zamanı tələbə yataqxanası, qruplararası ünsiyyət, müxtəlif mədəni mühitlərdən gələn tələbələrlə qarşılıqlı münasibətlər də inkişaf üçün güclü amil rolunu oynayır. Bu mühitdə tələbələr tolerantlıq, çoxtərəflilik və mədəni həssaslıq kimi keyfiyyətləri mənimsəyirlər.

Araşdırmalar sübut edir ki, sosio-emosional inkişafın sürəti və keyfiyyəti birbaşa olaraq tələbənin özünü inkişaf etdirmək istəyinə nə qədər məsuliyyətlə yanaşmasıyla əlaqəlidir. Özünün zəif cəhətlərini anlayan və onları aradan qaldırmaq üçün fəal addımlar atan tələbələr daha sürətli irəliləyiş göstərir.

Məlumdur ki, sosio-emosional bacarıqlar tələbə həyatının müxtəlif sahələrində aydın şəkildə özünü büruzə verir. Geniş mövzu olduğunu nəzərə alaraq mümkün qədər sistemləşdirməyə çalışsaq yığcam şəkildə aşağıdakı sahələri nəzərdən keçirə bilərik:

- Akademik fəaliyyətdə sosio-emosional bacarıqları aşağı olan tələbələrdə dərs cədvəlinin planlaşdırılması, görüləcək işləri təxirə salma, semestr imtahanları zamanı stressin idarə olunması və s. kimi hallarda daha çox çətinliklər müşahidə olunur. Müşahidələr göstərir ki, münaqişələri həll etmək bacarığı olmayan qrupların əksəriyyətində sosio-emosional bacarıqlı zəif

olan tələbələr üstünlük təşkil edir. Təbii ki, bu da layihənin keyfiyyəti və iş sürətinin aşağı olması ilə nəticələnir. Digər tərəfdən akademik fəaliyyətdə sosio-emosional bacarıqları aşağı olan tələbələrdə müəllimin təqdim etdiyi materiala passiv yanaşma, sual vermə və alternativ həll yolları axtarmağa təşəbbüs etməmək üstünlük təşkil edir.

➢ Şəxsi və sosial həyatda sosio-emosional səriştələri aşağı olan tələbələrdə yeni mühitə, yataqxana həyatına, müxtəlif sosial qruplara uyğunlaşmaqda ciddi problemlər müşahidə olunur. Xüsusilə də ilk kursun birinci semestrində. Bu tələbələrdə otaq yoldaşları, qrup yoldaşları, müəllimləriylə ünsiyyət qurmaqda, öz hərəkətlərinin və onların başqalarına təsirinin anlamaqda, öz güclü və zəif tərəflərini, maraqlarını və dəyərlərini dərk etməkdə, faydalı əlaqələr qurmaq və onları qoruyub saxlamaqda, özünü ifadə etmək və öz keyfiyyətlərini vurğulamaqda, təzyiq altında sakitliyini qorumaqda müəyyən çətinliklər bariz şəkildə müşahidə olunur.

Araşdırmalar sübut edir ki, sosio-emosional səriştələrin təzahürü inteqral xarakter daşıyır. Məsələn, yüksək səviyyəli özünüidarəetmə bacarığı həm akademik uğura, həm psixoloji sabitliyə, həm də peşəkar nailiyyətlərə birgə təsir göstərir. Bunları nəzərə alaraq uğurlu gələcək nəslin yetişdirilməsi üçün sosio-emosional səriştələrin inkişafına xüsusi önəm vermək məqsədəuyğundur.

Müşahidələr göstərir ki, mövcud təhsil sistemində sosio-emosional səriştələrin təhsilalanlar arasında inkişafının qarşısında əhəmiyyətli maneələr mövcuddur:




***Şəkil 1.2. Mövcud təhsil sistemində sosio-emosional səriştələrin təhsilalanlar arasında inkişafının qarşısında əhəmiyyətli maneələr***

İnstitusional maneələr dedikdə əsas problem kəmiyyət üstünlüyünün keyfiyyət üstünlüyündən yüksək qiymətləndirilməsi hesab olunur. Proqramların həddən artıq ağırlığı “yumşaq bacarıqlar”a verilən vaxt və diqqəti aşağı salır. Digər tərəfdən sosio-emosional bacarıqlar adətən rəqəmsal şkala ilə qiymətləndirilməməsi təhsilalanlar arasında bu sahəni mənimsəməyə olan tələbatı aşağı salır. İmtahanlarda riyaziyyat, ana dili fənləri kimi yüksək nəticə tələb edən fənn olmadığı üçün təhsilalanlar, müəllimlər və valideynlər tərəfindən vacib hesab olunmur. Eyni zamanda bir çox müəllimlər öz fənlərini sosial-emosional komponentlərlə zənginləşdirmək üçün lazımi metodiki bilik və motivasiyaya malik deyillər.

Şəxsi və mədəni maneələr dedikdə isə ənənəvi təhsil sisteminin əvəzolunmaz olduğuna inanılması hesab olunur qeyd etsək yanılmarıq. Cəmiyyətin bir hissəsində ali təhsilin yalnız konkret bilik və diplom verməli olduğu stereotipi mövcuddur. Tələbənin passiv “bilik alıcısı” olduğuna inanan bəzi təhsil işçiləri təhsilalanları aktiv “inkişaf edən şəxs” kimi qəbul edə bilmir və nəticədə maneələr yaranır. Təəssüflər olsun ki, bir çox ali məktəblərdə psixoloji dəstək xidmətləri formal xarakter daşıyır və ya ümumiyyətlə effektiv deyil.

**Problemin praktiki əhəmiyyəti.** Məqalədə irəli sürülən elmi – nəzəri fikirləri, texnikaları müəllimlər tərəfindən gündəlik dərs praktikasında şagirdlərin fəallığının artırılmasında, təhsil işçiləri, praktik psixoloqlar, valideynlər, bu sahədə tədqiqat aparan elmi işçilər öz fəaliyyətlərində istifadə edə bilərlər.

**Problemin elmi yeniliyi**. Sosio-emosional səriştələrin təhsil sistemində olan boşluğu beynəlxalq

səviyyədə araşdırılır və müəyyən islahatlar həyata keçirilir. Ölkəmizin heç bir yeniliklərdən geri qalmadığını nəzərə alsaq yaxın gələcəkdə müxtəlif araşdırmaların işıq üzü görəcəyi danılmazdır.

**Nəticə** Qeyd edilənləri nəzərə alaraq bildirə bilərik ki, ali təhsil müəssisələrində tələbələr arasında sosio-emosional səriştələrin inkişaf etdirilməsi üçün təhsil sistemində köklü islahatların aparılması labüddür. Bütün ixtisaslar üzrə tədris proqramlarına "Sosio-emosional səriştələrin inkişafı" modulu kimi daxil edilə bilən praktik fənlərin daxil edilməsi məqsədəuyğun olardı. Buna nümunə olaraq "Kommunikasiya və təqdimat", "Stress menecmenti", "Komanda quruculuğu", "Karyera planlaşdırması" və digər bənzər fənlərin təşkili və sonda qiymətləndirilməsi sosio-emosional səriştələrin təhsilalanlara mənimsədilməsində səmərəli rol oynaya bilərdi.

Digər tərəfdən tədris metodlarının yenilənməsi ilə problem əsaslı öyrənmə, xidmət öyrənməsi, təcrübəvi oyunlar, refleksiya sessiyaları kimi metodlardan daha geniş istifadə sosio-emosional səriştələrin inkişafının əsasını təşkil edir.

Eyni zamanda tələbələrin müəyyən klublara, dərnəklərə, könüllülük proqramlarına qoşulmalarının maliyyələşdirilməsi və ya "kredit" kimi tanınması da bu sahələrə olan marağın artması ilə nəticələnə bilər.

Müəllimlər üçün "Tədris prosesində sosio-emosional inkişafın dəstəklənməsi" mövzusunda xüsusi treninqlər və metodik materialların hazırlanması, sosio-emosional göstəricilərin portfel, özünüqiymətləndirmə, 360 dərəcəli rəy kimi alternativ üsullarla ölçülməsi və nəticələrinin təhlili məqsədəuyğun olardı.

Yekun nəticə kimi qeyd etmək olar ki, ali təhsil müəssisəsi tələbənin sosial-emosional cəhətdən yetkin bir şəxs kimi formalaşması üçün unikal mühitdir. Lakin bu proses öz-özünə, təsadüfi və qeyri-bərabər baş verir. Onun effektivliyini artırmaq üçün məqsədyönlü, sistemli və bütün təhsil iştirakçılarını (idarəetmə, müəllim heyəti, tələbələr) əhatə edən inteqrasiya olunmuş yanaşma tələb olunur. Belə yanaşma nəinki tələbələrin indiki uğurunu, həm də onların uzunmüddətli peşəkar və şəxsi rifahını təmin edəcək, eyni zamanda cəmiyyətə uyğun, məsuliyyətli və uyumlu vətəndaşlar yetişdirilməsinə kömək edəcəkdir.

## Ədəbiyyat


1. Arbués, E., Abad-Villaverde, B., Costa-Paris, A., Balaguer, Á., Conesa-Lareo, MD, & Beltramo, C. Social-emotional competencies for sustainable development: An exploratory view. *Education*(7) – 2025. –1-7 s.
2. Arslan, K. Eğitimde Yapay Zeka ve Uygulamaları // Batı Anadolu Eğitim Bilimler Dergisi – 2020. – 71-88 s.
3. Durlak, JA, Weissberg, RP, Dymnicki, AB, Taylor, RD, & Schellinger, KB . The impact of strengthening students' social and emotional learning: A meta-analysis of universal school-based interventions. Child Development (1), 40 – 2011. –405-432 s.
4. Mayer, JD, Salovey, P., & Caruso, DR. Emotional intelligence: Theory, findings, and implications /Psychological İnguiry, 15(3)– 2004. –197-215 s.
5. Romero-García, C., Buzón-García, O., & Marcano, B. Social-emotional competence and identity of future secondary school teachers.*Edu*(3) – 2022. –161- 163 s.
6. Zins, JE, Weissberg, RP, Wang, MC, & Walberg, HJ. *Achieving academic success based on social and emotional learning: Teacher* – 2004. –244 s.
7. Azərbaycan Respublikası Elm və Təhsil Naziliyi. Azərbaycan məktəbi elmi pedaqoji jurnal chromeextension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://arti.edu.az/wp-content/uploads/2024/10/Azərbaycan-məktəbi-jurnali-N3-2024
8. Demokratiyanın İnkişafı Problemləri Mərkəzi. Tələbələrin sosiallaşması: mövcud reallıqlar və problemlər https://avropa.info/2025/07/23/t%C9%99l%C9%99b%C9%99l%C9%99rin-sosiallasmasi-movcud-realliqlar-v%C9%99-probleml%C9%99r/https:/ /www. google. com/url?sa =i& url= https % 3A % 2F%2 Fwww .elchapulind emontealban.com
9. Vəliyeva S. Tələbələrin Emosional və Psixoloji İnkişafının Aktual Məsələləri https:// dergipark. org.tr/tr/pub/atdd/article/1807788


**Redaksiyaya daxil olub:** 07.04.2026